***Bu gün ölkəmiz tarixi günlər yaşayır. Şanlı Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə 30 il işğal altında olan torpaqlarımızı azad edir, qəhrəmanlıq tariximizə yeni səhifələr yazır. Azərbaycan sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatlarını uğurla davam etdirir, düşmənin hərbi texnikası və canlı qüvvəsi məhv edilir. Bütün dünyanın diqqəti Azərbaycandadır. Dünyanın məşhur telekanalları Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevdən müsahibələr alır, Azərbaycan və Ermənistan arasında nə baş verdiyini onun dilindən eşitmək istəyirlər. Azərbaycan Prezidenti yüksək intellekti, peşəkar siyasətçiyə xas olan qətiyyətli, təmkinli, məntiqli cavabları ilə region həqiqətlərini dünyaya çatdırır. Cənab Prezidentin çıxışlarından sonra hətta Azərbaycanı sevməyənlər belə artıq anlayırlar ki, ölkəmizin mübarizəsi həm tarixi, həm də beynəlxalq hüquq baxımından ədalətlidir. Azərbaycan müharibə aparmır, Azərbaycan erməni işğalı altında olan torpaqlarını azad edir, öz ərazi bütövlüyünü bərpa edir.***



# “Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir”

Cənab Prezident “Rossiya-1” və “Əl-Cəzirə” televiziya kanallarına müsahibələrində ordumuzun əks-hücum əməliyyatlarının başlaması məsuliyyətinin Ermənistanın üzərinə düşdüyünü faktlarla, ardıcıllıqla izah edib, 28 il danışıqlar prosesinə sadiq qalan Azərbaycana başqa seçim buraxılmadığını bildirir.

Qeyd olunur ki, münaqişənin həlli üçün beynəlxalq hüququn normaları, beynəlxalq təşkilatların qərar və qətnamələri baxımından bizim çox geniş dəstəyimiz var. 27 il bundan əvvəl BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının geri çəkilməsini tələb edən qətnamələr qəbul etmişdir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası da eyni addımı atıb. İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti kimi digər beynəlxalq qurumlar və başqaları da həmçinin. Lakin bu, kifayət etmir. Çünki təcavüzkara kifayət qədər praktiki təzyiq yoxdur. Beləliklə, biz burada beynəlxalq hüquq və reallıqda baş verənlər arasında ziddiyyət görürük. Ermənistan tərəfindən beynəlxalq hüquqa və normalara açıq şəkildə məhəl qoyulmaması dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Məlum olduğu kimi, bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, bəlkə də bir neçə saat ərzində icra olunur. Lakin bizə gəldikdə qətnamələr uzun illərdir ki, kağız üzərində qalıb. Beləliklə, təcavüzkara praktiki təzyiqin olmaması münaqişənin nəyə görə bu qədər uzun çəkməsinin səbəblərindən biridir. Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayandı. Açıq danışıqlardan qaçan Ermənistan hökuməti müxtəlif təxribatlarla danışıqlara əngəl törətməyə başladı.

“Əgər son iki ildə “inqilab”dan sonra Ermənistanın etdiklərinə və nə bəyan etdiklərinə nəzər salsaq, görərik ki, onlar bizi həmişə təhrik ediblər və yeni müharibəyə başlamağı hədəfə alıblar və bunun səbəbi isə danışıqları tamamilə pozmaq idi. Onlar Azərbaycana qarşı bir neçə hərbi təxribat törədiblər”. “Əl-Cəzirə” televiziya kanalına müsahibəsində cənab Prezident belə deyib.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları sistemli xarakter daşıyır. İyul, avqust və sentyabr aylarında baş vermiş hərbi təxribatlar regiona təhlükə yaradır və Azərbaycanı hərbi qüvvədən istifadə etməyə təhrik edir. Əgər Ermənistanın baş naziri deyirsə ki, “Qarabağ Ermənistandır”, Azərbaycan Ermənistanla yox, qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparmalıdır, onda hansı danışıqlardan söhbət gedə bilər?! Bu, onların əraziləri geri qaytarmaq istəmədikləri, danışıqların sonu deməkdir. Danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır.

Ermənistanın Azərbaycana qarşı təxribatları bu faktlarla bitmir. “Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının “andiçmə” mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər”. Ermənistanın baş naziri bəyan etmişdir ki, on minlərlə insanı birləşdirən “könüllü” hərbi birləşmələr yaradılacaqdır. Bu, nə üçün lazımdır? Bu, Azərbaycana qarşı indiki təxribatın hazırlıq mərhələsi idi.

Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır. İş burasındadır ki, Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisi azalır. Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan resursları yoxdur ki, işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirsinlər. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Nəhayət, həyasızlığın son həddi olaraq, Ermənistanın baş naziri Azərbaycana qarşısında 7 şərt qoyur.

Çox təəssüf ki, ikili standartlar davam edir və beynəlxalq qətnamələr kağız üzərində qalır. Əgər Ermənistan iradə göstərsəydi və əsas beynəlxalq təşkilatların qətnamələrinə uyğun şəkildə davransaydı, münaqişə indiyədək həll edilmiş olardı. Baxmayaraq ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası qoşunların bizim ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnamə qəbul etdi, bu qətnamələr kağız üzərində qalmaqdadır.



Prezident İlham Əliyev xüsusilə son iki ildə beynəlxalq ictimaiyyətə, son günlərdə isə BMT səviyyəsində müraciət edərək, Ermənistanın təxribatları, onun yeni işğalçılıq planları, müharibəyə hazırlaşması haqqında məlumat verib və beynəlxalq ictimaiyyəti erməni faşist dövlətini durdurmağa çağırıb. Amma təəssüf ki, beynəlxalq təşkilatlar və dünya dövlətləri susqunluq göstərdilər. Və Azərbaycan dövləti işğalçı, təcavüzkar Ermənistanı özü durdurmaq qərarını verdi. Azərbaycan işğal edilmiş torpaqlarını beynəlxalq hüquq çərçivəsində azad etmək, ərazi bütövlüyünü bərpa etmək məqsədilə antiterror əməliyyatına başladı. Azərbaycanın döyüş meydanında üstünlüyü işğalçı Ermənistanın, ona havadarlıq edən dövlətlərin, beynəlxalq təşkilatların narahatlığına səbəb olur.

Sentyabrın 27-dən başlayaraq hər gün bir çox aparıcı dünya dövlətlərinin başçıları, ATƏT-in Minsk qrupu da daxil olmaqla, beynəlxalq təşkilatların rəhbərləri Azərbaycan dövlət başçısına zənglər edir, bəyanatlar verirlər. Azərbaycanı əks-hücumu durdurmağa çağırırlar. 30 ilə yaxın öz mövqesizlikləri, fəaliyyətsizlikləri ilə işğalçı Ermənistana faktiki dəstək verən dövlətlər və beynəlxalq təşkilatlar, birdən-birə cənab Prezidentə zəng vurmaq üçün növbəyə duraraq, Azərbaycanı sülhə, danışıqlar prosesinə dəvət edir, ölkəmizin beynəlxalq hüquq çərçivəsində apardığı əməliyyatlara mane olmağa çalışırlar. Məqsəd birdir: Ermənistanı qorumaq.

Cənab Prezidentin cavabı qəti və birmənalı oldu: “Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Mənim tələb etdiklərim tamamilə beynəlxalq hüquqa müvafiqdir, çünki bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dünyanın heç bir ölkəsi “Dağlıq Qarabağ respublikası”nı tanımır. Mənim söylədiyim sözlər demək olar ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin mətnidir. Onlar bizim ərazilərimizi tərk etməlidir və yalnız ondan sonra müharibə dayanacaq, münaqişəyə son qoyulacaq”.

Bütün bu addımlar fonunda dünya dövlətləri, nəhayət, dərk etməlidirlər ki, ədalət deyilən bir meyar var. Dövlətimizin başçısı İlham Əliyevin Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşündəki nitqində söylədiyi fikirlər dünyanın bugünkü mənzərəsini təqdim edir: “Mən açıq demişəm, bir daha demək istəyirəm ki, bu qanlı döyüşlər bizim üçün, bütün Azərbaycan xalqı üçün həqiqət anıdır. Biz görürük kim kimdir. Biz görürük ki, bəzi hallarda yaxşı sözlər deyən, yaxşı bəyanatlar verən bəzi tərəflər öz sözünün arxasında durmur. Sözdə bir şey deyilir, əməldə başqa şey edilir…İndiki şəraitdə hansısa tərəflərdən dialoqa çağırışlar edilməsi, yersizdir. Bunu beynəlxalq təşkilatlar edir, bunu BMT edir. Biz bunu təbii ki, qəbul edirik. Bunu ATƏT edir, biz bunu qəbul edirik. Çünki ATƏT-in mandatı var. Yoxsa ki, kimsə deyir gəlin belə dialoqu başlayaq, biz də kömək edək, bunlara ehtiyac yoxdur. İndi həqiqət anıdır. Sən kimin tərəfindəsən? Haqqın, yoxsa, şərin? Dostun, yoxsa düşmənin?”

Nüfuzlu beynəlxalq təşkilatlar özlərini ədalət, sülh tərəfdarı kimi göstərməyə çalışsalar da, reallıq budur ki, onlar Ermənistana dəstək göstərməkdə davam edirlər. ATƏT-in Minsk qrupunun 3 həmsədri bir neçə gün əvvəl bəyanatla çıxış edib. Bu bəyanatlar bölgədə sülhə töhfə verməyə xidmət etmir. Fransa Prezidenti Emmanuel Makronun son açıqlamaları da bu qəbildəndir. Makron deyir ki, “Qarabağın Azərbaycan tərəfindən yenidən ələ keçirilməsini qəbul etməyəcəyik”. Qarabağ Azərbaycan torpağıdır. Azərbaycan torpağının işğalçıdan azad olunması Azərbaycan xalqının haqqıdır və beynəlxalq hüququn tələbidir.

Fransa kimi bir dövlətin, ən əsası BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən, ATƏT-in Minsk qrupu həmsədrlərindən biri kimi belə mövqe tutması onun münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına ziddir, neytral vasitəçilik missiyasının tələblərinin kobudcasına pozulmasıdır. Minsk qrupu həmsədri olan ölkənin vasitəçilik missiyasına uyğun gəlmir, birtərəfli və qərəzlidir. Makronun bəyanatı bir daha göstərmiş oldu ki, Fransa dövləti Ermənistanın işğalçı siyasətini dəstəkləyir və beynəlxalq dəyərləri tapdalayır.

Cənab Prezident “Əl-Cəzirə” televiziya kanalına müsahibəsində bu haqda belə deyib: “Son günlərdə əks-təsir göstərən, neytrallıq mövqeyində müəyyən dəyişikliyi nümayiş etdirən bəzi bəyanatlar görməyimiz bizi narahat edir. Hər bir ölkənin öz mövqeyi ola bilər, bu, normaldır. Lakin əgər siz belə həssas məsələdə vasitəçisinizsə, bu mövqedən çıxış etməlisiniz. Əgər milli mövqeyinizdən çıxış etmək istəyirsinizsə, onda siz Minsk qrupunun həmsədrliyindən çıxmalısınız, istədiyinizi deyin, kimi istəyirsinizsə onu günahlandırın, baş verənlərlə bağlı sübutu olmayan xəbərlər verin və sözsüz ki, heç kim etiraz etməyəcək. Lakin əgər siz vasitəçisinizsə, neytral olmalısınız, vasitəçi olmalısınız. Əks halda, vasitəçilik bizim tərəfimizdən qəbul edilməyəcək.

Fransa prezidenti Qarabağın tarixini bilməyə bilər, amma beynəlxalq hüququ və xüsusilə Fransanın tarixini bilməlidir. Tarixə nəzər salsaq, Fransa dövlətinin soyqırımı törətmiş bir ölkə olduğunu görə bilərik. Məhz bu səbəbdən də işğalçılıq siyasətini dəstəkləməsi bunun əyani sübutudur. Əlcəzair xalqı Fransanın hakimiyyəti altında 132 ildə (1830-1962) müstəqillik uğrunda mübarizə aparmış və nəticədə fransızlar tərəfindən 1,5 milyon əlcəzairliyə qarşı soyqırımı həyata keçirmişdir. Fransanın Vyetnam, Cibuti (XIX əsrin 60-cı illəri), Çad (ötən əsrin 50-ci illəri), Qabon və Tunisdə (1881) törətdiyi soyqırımı zamanı 10 minlərlə insan həlak olmuşdur. Bu gün davam edən Kamerunun ingilisdilli və fransızdilli bölgələri arasındakı savaş Fransanın müstəmləkə dövrünün Afrika ölkələrinə qoyduğu acı mirasdır.

Azərbaycan işğalçıya qarşı Vətən müharibəsi aparır. Qarabağ Azərbaycanın əzəli torpağıdır. Azərbaycan əsgəri öz torpağında vuruşur. Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycan Ermənistanın işğal etdiyi torpaqlarımızı azad etməsi üçün bütün hallarda beynəlxalq hüquqa əsaslanır. Dünyanın ali beynəlxalq qurumu olan BMT-nin nizamnaməsində göstərilir ki, hər bir dövlətin özünümüdafiə haqqı var və biz bundan istifadə edirik, özümüzü müdafiə edib, əks-hücum əməliyyatına keçib bu gün düşmənə sarsıdıcı zərbələr endiririk.

Prezident oktyabrın 7-də “Euronews” televiziyasına verdiyi müsahibədə bir daha sülh məsələsi ilə bağlı verilən suala cavab verərək dedi: “Sizə deyə bilərəm ki, prezidentlik müddətimdə Ermənistanın iki sabiq prezidenti və indiki baş naziri ilə bəlkə də onlarca danışıq aparmışam. Əvvəlki debatlar ərzində biz danışıqlar masasında əsaslı irəliləyişə nail olmuşduq. Biz bugünkü münaqişənin həlli üçün prinsipləri işləyib hazırlamışdıq. Biz konstruktiv idik. Danışıqlar 1992-ci ildən bəri davam edirdi. Təsəvvür edirsiniz? Demək olar ki, 30 il müddətində biz ümidlərlə yaşayırdıq. Vasitəçilər bizə “bir az gözləyin, Ermənistan tərəfindən daha konstruktiv yanaşma olmalıdır” deyirdilər. Lakin iki il bundan əvvəl dövlət çevrilişi nəticəsində bu baş nazir hakimiyyətə gələndən sonra danışıqlar prosesini tamamilə məhv etdi. Mənim onunla dəfələrlə görüşlərim olmuşdur, lakin bu görüşlər tamamilə mənasız idi. O, mənə əraziləri geri qaytarmayacaqlarını dedi, onlar Dağlıq Qarabağın Ermənistana birləşməli olduğunu deyirdi. Beləliklə, bunlar mənim üçün tamamilə qəbuledilməz tələblər idi və onlar vasitəçilər üçün də qəbuledilməz idi”.

Cənab Prezidentin dəfələrlə qeyd etdiyi kimi, “Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun”.

***Tamam CƏFƏROVA,***
***Milli Məclisin deputatı,***
***tarix üzrə fəlsəfə doktoru,***
***dosent***